**THE EDUCATION PROSESS OF TEACHING**

***Aliyeva Nasiba Islam, Quliyeva Tahira Qoja***

***Summary***

This article deals with the importance of teaching of foreign languages and its role in our society. Generally learning foreign language is an important goal for young generation and when they would chosen their career it is very urgent problem. They have got a good chance to learn and to speak this language and in this way they can get great success .Nowadays every teacher has to answer all these questions and they able to gain good luck in their life.

***Rəyçi: dos. Əliyeva Zahirə***
***Praktik xarici dillər kafedrasının 28 yanvar 2021-ci il tarixli iclasın 07 saylı protokolu***
***Daxil olma tarixi 02 fevral 2021-ci il***

**UOT:159.9**

# NIZAMİ YARADICILIĞINDA BƏŞƏRİ HİSLƏRİN TƏRƏNNÜMÜ

***Həmidova Güntəkin Allahverdi qızı***
***Gəncə Dövlət Universiteti***
***gceferova@rambler.ru***

**Xülasə:** *Nizami Gəncəvi ilk növbədə insan psixologiyasını, ona xas olan insani hislərі-təvazökarlığı, zəhmətsevərliyi, əxlaqi keyfiyyətləri, ümumbəşəri məna kəsb edən zəhmət, namus, mərdlik, cəsarət kimi xüsusiyyətlərin məhz bəşər övladına məxsus olduğunu əsərlərində tərənnüm etmişdir.*

*Nizami Gəncəvinin əsərlərindən görürük ki, o, insan psixologiyasının mahir bilicisidir. Şair, həmçinin, poemalarında insanın ictimai-siyasi-psixoloji vəziyyətini ustalıqla vəsf etmişdir.*

*Nizami Gəncəvi şeirlərində əməkçi insanları yüksək dəyərləndirmiş və onları başqa qəbildən olan insanlara nümunə göstərmişdir.*

**Açar sözlər**: şair, psixologiya, bəşər, psixoloji hislər, hünər, cəsarət, alim, tərənnüm etmək, oxucu, dünya ədəbiyyatı, ictimai-siyasi-psixoloji, bədii, doğma xalq, millət.

**Ключевые слова**: поэт, психология, человечество, психические чувства, отважность, учёный, воспевать, читатель, мировая литература, общественно-политический, художественный, родной народ, нация.

**Key words:** poet, psychology, humanity, psychological feelings, courage, bravery, scientist, to glorify, reader, world literature, socio-political psychology, fiction, world people, nation.

Xalqımızın böyük oğlu, bədii və fəlsəfi fikrimizin nurlu əbədiyyətini yaradan peyğəmbər şairimiz Nizami Gəncəvi yalnız Azərbaycan xalqına deyil, həm də bütün bəşəriyyətə mənsub sənətkardır. Dahi şairin əsərlərində böyük ustalıqla tərənnüm edilən istək və arzular, məhəbbət, insanpərvərlik, ədalət, hünər, cəsarət və mərdanəlik, səbr və təmkin bəşər övladına mənsub insani hiss və duyğulardır ki, Nizami bütün əsərlərində onları vəsf etmişdir. Şairin poemalarını oxuyarkən, istər-istəməz onun insana, insanın ucalığına verdiyi qiymətdən heyrətə gəlməmək mümkün deyildir. Təsadüfi deyildir ki, Nizami insanı yer üzünün əşrəfi sayır.

Ümumbəşəri, mütərəqqi ideyalar tərənnümçüsü olan Nizaminin humanist fikir və düşüncələrini ifadə edən, özünün orijinallığı və bədii təfəkkür yetkinliyi ilə oxucularını

heyran və məftun edən "Xəmsə"nin təsiri ilə dünyanın bir şox ölkələrinin görkəmli şair və yazıçıları öz əsərlərini yaratmışlar.

Nizami Gəncəvi dünya ədəbiyyatında yeni bir dövr açmış, Yaxın və Orta Şərq xalqlarının bədii, ictimai, fəlsəfi təfəkkür tərzini nurlandırmışdır, bədii təfəkkürün imkanlarını genişləndirmişdir. Bu nadir istedad sahibinin 8 əsrdən çoxdur ki, həm doğma xalqının, hən də Şərq xalqlarının bədii-fəlsəfi yaradıcılığını zinətləndirən bir mənbə olaraq qalır.

Nizami əsərlərində təbiət lövhələrinə, cəmiyyətə, insanı əhatə edən mühitə və insanın özünə geniş yer verir. Nizaminin sənət əsərlərinə əbədilik gətirən bədii idrakın, bədii təsvir vasitələrinin zənginliyi, rəngarəngliyi və dolğunluğudur. İnsanı lirik-romantik və psixoloji momentlərdə tərənnüm edən Nizami öz əsərləri ilə Şərq xalqları poeziyasında lirik-romantik və psixoloji etik səciyyəli bir məktəbin əsasını qoymuşdur.

Nizaminin gənc yaşlarında qələmə aldığı "Sirlər xəzinəsi"ndə böyük bəşəri problemlərə toxunulur, burada əks etdirilən hislər də, duyğular da, ideyalar da bəşəri xarakter daşıyır. Onun irəli atdığı problemlərin yalnız özünə, öz xalqına deyil bəşər övladına-təfəkkür sahibi-insana aid olduğunu görürük. Artıq bu ilk poemasında mütəfəkkir şair sözün qüdrətindən, kəsərindən elə məharətlə istifadə edir ki, onun zəkasında gəncliklə ağsaqqallıq düşüncəsinin tarazlığını görürük:

İçmə, huşyar eyləməz o içdiyin mey səni,
Yaddan çıxar varlığın, şərab eylər key səni.
Sərxoşluğa uyan kəs ələm çəkər ömürlük,
Aqilliyin üstünə qələm çəkər ömürlük,-

deyən Nizami elə gənc yaşlarından meyin insanı rəzil hala saldığından, əqli, məntiqi idrakdan məhrum edib şüursuz bir vəziyyətə gətirdiyindən söhbət açır, əsrlər, qərinələr bundan əvvəl yalnız hər hansı bir azərbaycanlıya deyil, ümumiyyətlə, bəşər övladı olan insana bu pis əməldən əl çəkməyi tövsiyə edir:

Qana qəltan etsə də, səni zəhmət tikanı,
Çalışmaqdan usanma, işə alışdır canı.
Öz halal zəhmətinlə namuslu insan sayıl.
Hər yetənə alçalma, əl açıb olma sail (S.X)

İnsanı əmək yaratmışdır deyən XIX əsr klassiklərindən 800 il əvvəl dahi Nizami bu fikri daha kəsərli və qəti demişdir. Planetimizin hər yerində zəhmətə qatlaşan, öz əməyi ilə yaşayan insanın əxlaqi xüsusiyyətlərinin də ali olmasını görürük. Ümumbəşəri məna kəsb edən zəhmət, namus sözləri məhz insana məxsus bəşəri keyfiyyətlərdir. Dahi şairimizin bu nəsihətamiz tövsiyələri bu gün də insanı zəhmətə, ucalığa, yeni-yeni zirvələrə səsləyir.

Dünyaya fateh olmaz zülmkarlıq, rəzalət,
Yer üzünün fatehi ədalətdir, ədalət.
Ədalətin müjdəsi bu dünyanı şad edər,
Ədalətin işidir, ölkəni abad eylər.

misralarini bizdən 8 əsrdən artıq bir müddət ayırır, ancaq bunu zaman ayrılığı hesab etmək olar, burada dərin güclü bir mənəvi yaxınlıq duyulur. Doğrudan da, hansı ictimai-iqtisadi formasiya olsa da, ədalət, zülmkarlıq, rəzalət insana məxsus keyfiyyətlərdir, şairimiz insanlığı yalnız ədalətdə görür.

Xoşbəxtlərtək əgər dövlət sevərsən,
Tamahı məhv elə, qurtar ondan sən,-

misraları Gəncəvinin II poeması "Xosrov və Şirin"dədir. Şair burada yenə də insanla danışır, tamahı az olanı o, dünyanın ən xoşbəxt və bəxtəvər adamı hesab edir, belə adamın həyatda çox bəlalardan kənarda qalacağını bildirir. Tamahkarlığı şair insanın ən rəzil, bədbəxt xüsusiyyəti kimi qeyd edir."

"Yeddi gözəl"dəki fikirlər şairin həyat, cəmiyyət və insanlar haqqındakı mütərəqqi fikirlərini tam dərinliyi ilə göstərir. Şairin fikrincə, insanın vəzifəsi yeyib yatmaqdan ibarət deyil, sayıq olmaq, hünər göstərmək insanın ən başlıca vəzifəsidir - deyə şair insanın ləyaqətini, qeyrətini xalqına xidmətində görür:

Çalış öz xalqının işinə yara,
Geysin əməlinlə dünya zər-xara
Xoş ətirlər saçmaq istəyən adam,
Gül tək xoş xasiyyət olmalı müdam.

Humanist ideyaların yüksək ifadəsi, həqiqi məhəbbətin mücəssəməsi olan Leyli və Məcnun obrazları həmişə yaşayan, yüksək poetik lövhələrlə verilmiş insanlığın ülvi məhəbbəti, bəşər övladının ən ali hisləri kimi tərənnüm edilmişdir.

Məhəbbət daimi olmasa, əgər,
Gəncliyin bir şəhvət oyuna dönər.
Məhəbbət odur ki, odu sönməsin,
İnsan yaşadıqca üzü dönməsin
Həqiqi məhəbbət bir məhəbbətdir
İlki də, sonu da əbədiyyətdir.

"Leyli və Məcnun" poemasından gətirilən bu sətirlərdə böyük Nizami məhəbbəti şəhvətə, oyun-oyuncağa, yüngül hislərə döndərməməyi tövsiyə edir.

Nizaminin sonuncu əsəri "İsgəndərnamə"də xalqlar dostluğu, sülh ideyalarını, vətənpərvərlik duyğularını ecazkar sənətkarlıqla tərənnüm etmiş və bu xüsusiyyətlər böyük humanist şairin dünyagörüşündəki beynəlmiləlçilik əhvali-ruhiyyəsi ilə bağlıdır. "Şərəfnamə"dən gətirilən aşağıdakı iki sətirdə

Döyüşdən yaxşıdır barışıq, şəfqət;
Biri dərd gətirər, biri səadət.-

deyən Nizami insanları dostluğa, sülhə, barışığa çağırır. Bəşər övladına xas olan səbr, təmkin, inam-ən ali xüsusiyyətləri tərənnüm edən Nizami deyir:

Hər bəndin açarı səbrdir, inan,
Səbrli kimsələr olmaz peşiman.
Darılma sənə üz verdikdə kədər,
Ondan böyük bir dərddən qıl həzar.
(Şərəfnamədən)

Bu sətirlərdəki fikirlər əsrlərdir ki, oxucularına səbr, təmkin, vüqar, inam, qətiyyət kimi insani xüsusiyyətlər aşılayır.

Dahi sənətkarımız əsərlərində - yunanların, ərəblərin, çinlilərin, rusların, gürcülərin, hindlilərin, İran və Dağıstan xalqlarının adlarını hörmətlə çəkir və onların adət-ənənələrindən, həyat tərzindən danışır.

Hümanist bir insan olan Nizamini yer üzündə sərhəd, ayrı-ayrı xalqlar deyil, məhz insan problemi düşündürmüşdür.

"Şərəfnamə"dən gətirilən bir neçə sətirdə deyilir:

Hər şeyi özünçün əkmək nə yarar?
Dünyada hesabsız ruzi yeyən var?
Köçənlər zəhmətlə əkdiyi bağdan
Gələnlər meyvəni dərmiş hər zaman
Köçənlər bir çox şey əkmişdir bizə,
Biz də əkməliyik gənc nəslimizə
Dünya bir tarladır, diqqətlə baxsaq,
Hamı bir-birinə cütcüdür ancaq...

deyən humanist şair əkilən, becərilən ruzini yalnız öz xalqına deyil, ümumiyyətlə, haralılığından asılı olmayaraq yer üzünün əşrəfi olan insandan ötrü olduğunu göstərir.

Nizaminin yaradıcılığının elə bir parçası yoxdur ki, orada bəşər övladına məxsus hislər, duyğular tərənnüm edilməsin.

Əsrlər, qərinələr keçəcək, yenə də Nizaminin ideyaları yer üzünün insanlarını dostluğa, sülhə, vətənpərvərliyə, düzlük və sədaqətə, səbr və qənaətə, məhəbbət və cəsarətə səsləyəcəkdir.

***Ədəbiyyat***

1. N.Gəncəvinin əsərləri 1967, Maarif, Bakı
2.Ə.Ə.Qədirov-Yaş psixologiyası, Maarif, 2008, Bakı
3.Mircəlal, P.Xəlilov- Ədəbiyyatşünaslığın əsasları- Maarif,1988, Bakı
4.X.Yusifli- N.Gəncəvi Lirika, 2004, Elm, Bakı

## ВОСПЕВАНИЕ ЧЕЛОВЕЧЕСКИХ ЧУСТЬВ ТВОРЧЕСТВЕ НИЗАМИ

***Гамидова Гюльтакин Аллахведи кызы***

***Резюме***

Низами Гянджеви в своем творчестве, в первую очередь, воспевал психологическую природу человека и присущие ему личностные чувства: трудолюбие, скромность, нравственные качества, честь, достоинство, решительность, доброжелательность.

Знакомясь с произведениями его творчества, мы ещё больше убеждаемся в том, что он прекрасный знаток человеческой психики. Вместе с тем поэт мастерски изображает социально-общественное, политическое и психологическое положение человека в обществе.

В своих стихотворениях он даёт высокую оценку человеку труда, демонстрируя его образцом для людей иного склада.

## GLORIFYING MANHIND FEELINGS IN THE GREATION OF NIZAMI

***Hamidova Gultakin Allahverdi***

***Summary***

First of all Nizami Ganjavi glorified human psychology, human feelings, which belongs to it modestness, industrious, moral features-honour, courage,bravery which mean, all these features belong to human beings in his works.

From Nizami Ganjavi"s works we can see that he is a great master of human psychology . The poet also praised skillfully the socio-political psychological state of human being in his poems.

Nizami Ganjavi sets an example working people to others and he valued hard working people very highly.

***Rəyçi: b\m Telli Abbasova***
***Psixologiya kafedrasının 20 fevral 2021-ci il tarixli iclasın 05 saylı protokolu***
***Daxil olma tarixi 24 fevral 2021-ci il***